Fəaliyyətə başlamasının 90-cı ildönümündə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professor, müəllim və tələbələrinə Azərbaycan Respublikası Energetika Nazirliyinin kollektivi adından və şəxsən öz adımdan təbriklərimizi yetirirəm.

90 il bir ali təhsil müəssisəsi üçün çox böyük tarixdir. Bu tarixi zənginləşdirənsə UNEC-in keçdiyi yol, əldə etdiyi təcrübə, ortaya qoyduğu parlaq nəticələrdir. Universitet bu illərdə üzərinə düşən tarixi missiyanı şərəflə yerinə yetirib, cəmiyyətimizə qazandırdığı biliklərlə Azərbaycanın inkişafına dəyərli töhfələr verib.

Xalqımızın ümummilli lideri, Ulu Öndər Heydər Əliyevin milli inkişaf kursunu əzmlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurları sayəsində ölkəmizin daxil olduğu ardıcıl inkişaf mərhələsində UNEC də tarixinin intibah dövrünü yaşayır.

İqtisadiyyat sahəsində mütəxəssislərin hazırlanması, innovativ bilik və bacarıqlara malik kadrların yetişdirilməsi, insan kapitalının formalaşdırılması UNEC-in Azərbaycan xalqı və dövləti qarşısındakı böyük xidmətləridir.

Hazırda müxtəlif sektorlarda uğurla fəaliyyət göstərərək ölkəmizin inkişafında yaxından iştirak edən, öz peşəkar keyfiyyətləri ilə əmək bazarında yüksək standartlar müəyyənləşdirən kadrlar sırasında bu universitetin məzunları xüsusi yer tutur. Onlar öz bilik və bacarıqları, cəmiyyətdəki nüfuzlu mövqeləri ilə UNEC-in adını daha da ucaldırlar.

Ölkələrin iqtisadi inkişafı ilə bağlı müasir nəzəriyyələrdə də əsaslandırıldığı kimi, hətta uzun müddət əsas kapitala investisiya qoyulmadığı halda belə yalnız biliklərin artımı hesabına vahid kapitala düşən məhsul buraxılışını artırmaq mümkündür. Xammala əsaslanan qlobal iqtisadiyyat modeli artıq bütün dünyada bilik iqtisadiyyatı ilə əvəz olunur, beləliklə, dördüncü sənaye inqilabı dövründə dövlətlərin qüdrətini fərqli meyarlar – fərdlərin və cəmiyyətin davranışlarını dəyişən biliklər, elmtutumlu iqtisadi sahələr müəyyənləşdirir.

Bu mənada, Azərbaycanda mövcud olan digər təhsil müəssisələrimiz kimi UNEC də xalqımızın müasir dövrdəki ən qiymətli sərvətlərindəndir. Universitet günümüzün ən mühüm zərurətlərindən olan təhsilin bizneslə səmərəli əlaqəsini qura bilir, dövrün şərtlərinə uyğun yenilənir, beynəlxalq elm və təhsil mühitində ölkəmizi layiqincə təmsil edir, bu günümüz və gələcəyimiz üçün yeni dəyərlər yaradır.

UNEC-ə bundan sonra da uğurlarla dolu neçə-neçə onilliklər arzulayıram.

**Pərviz Şahbazov**
**Azərbaycan Respublikasının**
**Energetika naziri**

№D/O/M-739/2020 03.06.2020-ci il